CARİ TRANSFERLƏR elə əməliyyatlardır ki, bu zaman bir institusional vahid (sektor) başqa bir institusional vahidə (sektora) əvəzində heç nə almadan əmtəə, xidmət və ya pul vəsaiti təqdim edir və bu, aktivlərə sahibkarlıq hüququnun başqasına verilməsi, yaxud aktivlərin alınması və çıxdaş edilməsi ilə əlaqədar deyildir. Transferlər pul və natura şəklində verilə bilər.

Cari transferlərin aşağıdakı əsas növləri vardır:

a) gəlirlərə, əmlaka və s. görə cari vergilər;

b) sosial sığortaya və sosial müavinətlərə

enterprise and the remuneration received by the owners working in that enterprise for the work they perform.

***CONSUMPTION OF FIXED CAPITAL** is the decrease in the value of fixed assets during the reporting period as a result of physical deterioration, obsolescence and ordinary accidental damage of a non-catastrophic nature, and is determined depending on the current replacement value and service life of the fixed assets.*

***PRIMARY INCOME DISTRIBUTION ACCOUNT** characterizes primary distribution among residents (by institutional units or economic activities) of income received from production activities and property.*

***PROPERTY INCOME** is income receivable or payable by institutional units in connection with making financial assets, land and other non-produced nonfinancial assets (subsoil assets, other natural assets, patents, licences, etc.) available for use.They include the following types of income: interests, dividents, rents, confiscation of incomes by entrepreneur, reinvested receipts from direct foreign investments, incomes of insurance policy owners from property.*

***BALANCE OF PRIMARY INCOMES** is characterized by income generated by resident institutional units as a result of their participation in production. It is defined as the difference between total primary income receivable and payable by an institutional unit or sector. For the economy as a whole, the balance of primary income before the deduction of consumption of fixed capital is equal to gross national income\. The balance of primary income determined on a net basis (after deduction of consumption of fixed capital) is equal to net national income.*

***SECONDARY DISTRIBUTION OF INCOME ACCOUNT** reflects the transformation of the balance of primary incomes of institutional unit or sector into its disposable income as a result of current transfers receivable and payable.*

***TRANSFER** is a transaction in which one institutional unit provides goods, services or assets (financial or non-financial) to another institutional unit without receiving anything in return. Transfers are divided into current and capital transfers. They may be provided in cash or in kind.*

***CURRENT TRANSFERS** is transactions in which one institutional unit (sector) provides goods, services or monetary means to another institutional unit (sector) without receiving anything in return and which are not related to the transferof ownership of assets or the acquisition or disposal of assets. Transfers may be provided in cash or in kind.*

The main types of current transfers have the following main are as follows:

a) Current taxes on income, property, etc.;

ayırmalar;

c) digər cari transferlər: sığorta mükafatları, əvəzi ödənilməyən yardım, könüllü haqlar və ianələr, cərimə və penyalar, lotereya uduşları və s.

SƏRƏNCAMDA QALAN ÜMUMİ MİLLİ GƏLİR bütün institusional vahidlərin-rezidentlərin sərəncamında olan gəlirlərin, yəni institusional vahidlərin son istehlak və əmanətlər üçün malik olduqları gəlirlərin cəmidir. O, cari transferlər kimi verilmiş gəlirlər çıxılmaqla ilkin gəlirlərin saldosu üstəgəl (+) alınmış cari transferlərə bərabərdir.

SƏRƏNCAMDA QALAN GƏLİRLƏRİN İSTİFADƏSİ HESABI ev təsərrüfatları, dövlət idarələri və ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatlarının sərəncamında olan gəlirlərini son istehlak xərcləri və qənaət arasında bölüşdürülməsini əks etdirir.

SON İSTEHLAK XƏRCLƏRİ ev təsərrüfatları-rezidentlərin istehlak mallarına və xidmətlərə, habelə dövlət idarəetmə orqanlarının və ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatlarının fərdi və kollektiv istehlak üçün məhsul və xidmətlərə çəkdikləri xərclərdir. Belə qruplaşdırma son istehlakın kim tərəfindən maliyyələşdirilməsini göstərir. Ev təsərrüfatlarının son istehlak xərcləri onların gəlirləri hesabına əldə etdikləri istehlak mallarına və xidmətlərinə faktiki məsrəflərin ölçüsü ilə müəyyənləşdirilir. Dövlət idarəetmə orqanlarının və ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının son istehlak xərcləri onların cari xərclərinin (əsas kapitaldan istifadə də daxil edilməklə) ölçüsü ilə müəyyənləşdirilir. Fərdi istehlak üçün əmtəə və xidmətləri səhiyyə, sosial təminat, təhsil, mədəniyyət və incəsənət, büdcə təşkilatları, habelə ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatları təqdim edirlər. Kollektiv xidmətlər isə hüquq-mühafizə, idarəetmə, müdafiə, elm və s. büdcə təşkilatları tərəfindən göstərilir.

EV TƏSƏRRÜFATININ SON İSTEHLAK XƏRCLƏRİNƏ ev təsərrüfatının bütün ticarət müəssisələrindən, şəhər bazarları və qeyri-mütəşəkkil (küçə) ticarətindən, məişət xidməti müəssisəsi, sərnişin nəqliyyatı, rabitə, mehmanxanalar, pullu xidmətlər göstərən mədəniyyət idarələri, səhiyyə, təhsil müəssisələrindən əmtəə və xidmətlərinin əldə olunmasına çəkilən xərclər, həmçinin natura formasında əmtəə və xidmətlərin əldə olunması, özü üçün istehsal olunmuş (şəxsi kənd təsərrüfatı məhsulu, şəxsi mənzillərdə yaşayanlar üçün şərti hesablanmış xidmətlər) və əmək haqqı kimi ödənilmiş xərclər daxildir.

DÖVLƏT İDARƏETMƏ ORQANLARININ FƏRDİ ƏMTƏƏ VƏ XİDMƏTLƏRƏ ÇƏKDİKLƏRİ XƏRCLƏR dövlət idarəetmə sektoruna aid edilən təşkilatların fərdi istehlak üçün nəzərdə tutulmuş əmtəələrin alınmasına və xidmətlərin ödənilməsinə çəkdikləri xərclərdən

b) social insurance contributions and social benefits;

c) other current transfers; insurance premiums, gratuitous assistance, contributions and donations, fines and penalties, lottery winnings, etc.

***GROSS NATIONAL DISPOSABLE INCOME** is the sum of the disposable incomes of all resident institutional units, i.e. the income available to institutional units for final consumption and saving. It is equal to the balance of primary income plus current transfers receivable, lessincome payable as current transfers.*

***USE OF DISPOSABLE INCOME ACCOUNT** reflects the distribution of the disposable income the distribution of the disposable income households, general government and non-profit institutions serving households (NPISH) between final consumption expenditure and saving.*

***FINAL CONSUMPTION EXPENDITURE** consists of expenditure by resident households on consumer goods and services, as well as expenditure by general government and non-profit institutions serving households on goods and services for individual and collective consumption. Such a grouping shows who finances final consumption. Final consumption expenditure of households is determined by the amount of actual expenditure on consumer goods and services acquired out of their income. Final consumption expenditure of general government and non-profit institutions serving on households is determined by the amount of their current expenditure (including use of fixed capital). Goods and services for individual consumption are provided by budgetary organizations in the fields of health, social security, education, culture and the arts, as well as by non-profit institutions serving households. Collective services are provided by budgetary organizations engaged in law-enforcement, public administration, defence, science and etc.*

***FINAL CONSUMPTION EXPENDITURE OF HOUSEHOLDS** include expenditure by households on the acquisition of goods and services from all trade enterprises, urban and unorganized trade (street), household service enterprises, passenger transport, communication, hotels, cultural institutions providing paid services, health care, education, as well as the acquisition of goods and services in kind, produced for own use (agricultural production of personal subsidiary plots, imputed services of owner-occupied dwellings), and goods and services received as compensation of employees.*

***GENERAL GOVERNMENT EXPENDITURE ON INDIVIDUAL GOODS AND SERVICES** consists of expenditure by organizations classified in the general government sector on the purchase of goods and payment for services intended for isdividual consumption. This*

ibarətdir. Bu xərclər dövlət büdcəsi və/və ya büdcədənkənar fondlar hesabına maliyyələşdirilir.

DÖVLƏT İDARƏETMƏ ORQANLARININ KOLLEKTİV XİDMƏTLƏRƏ ÇƏKDİKLƏRİ XƏRCLƏRƏ büdcə təşkilatları tərəfindən dövlət büdcəsinin hesabına göstərilən və ayrı-ayrı ev təsərrüfatlarının deyil, bütövlükdə cəmiyyətin tələbatını ödəyən xidmətlərə çəkilən xərclər daxil edilir. Bu göstəriciyə müdafiə xərcləri, ümumi dövlət idarəetməsi, elm və elmi xidmət xərcləri (qeyri-bazar), küçələrin abadlaşdırılması və işıqlandırılması xərcləri, kənd təsərrüfatına xidmət edən təşkilatların xidmətləri daxil edilir.

EV TƏSƏRRÜFATLARINA XİDMƏT GÖSTƏRƏN QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ SON İSTEHLAK XƏRCLƏRİ - ev təsərrüfatlarına pulsuz təqdim edilən istehlak olunmuş mal və xidmətlərə ictimai təşkilatların çəkdikləri xərclərindən ibarətdir. Bura həmçinin müəssisə və təşkilatlar tərəfindən təhsil, səhiyyə və mədəniyyət sahəsində öz işçilərinə göstərdikləri pulsuz xidmətlər daxil edilir.

ƏSAS KAPİTALIN ÜMUMİ YIĞIMI istehsalda onlardan istifadə etmək yolu ilə gələcəkdə yeni gəlirlər yaratmaq üçün əsas kapital obyektlərinə vəsaitin qoyuluşudur. Əsas kapital istehsal prosesində dəfələrlə istifadə edilən, istehsalın nəticəsi olan aktivlərdir. Onlara bina və qurğular, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, damazlıq, məhsuldar, işlək mal-qara, bağlar, üzümlüklər və digər əkilmiş torpaqlar, geoloji–kəşfiyyat işlərinə çəkilən xərclər, EHM üçün proqram təminatına və məlumat bazalarına çəkilən xərclər, ədəbiyyat və incəsənət əsərlərinin orijinalları (tirajını artırmaq üçün əsas sayılan filmlər, səs yazıları, əlyazmalar və s.) daxildir.

Əsas kapitalın ümumi yığımı aşağıdakı komponentlərdən ibarətdir:

a) sıradan çıxma nəzərə alınmadan, mövcud əsas fondlar və yeni əsas fondların alınması;

b) istehsal olunmamış maddi aktivlərin yaxşılaşdırılmasına çəkilən xərclər;

ç) istehsal olunmayan aktivlərə sahib olmaq hüququnun başqasına verilməsi ilə əlaqədar olan məsrəflər.

Aktivlərin alınmasına satınalmalar, barter, natura şəklində kapital transferlərinin alınması, özünün istifadəsi üçün istehsal, əsaslı təmir daxildir.

Aktivlərin sıradan çıxması mənfi (-) işarə ilə göstərilir. İstehsal olunmayan maddi aktivlərin yaxşılaşdırılmasına torpağın, onun alt qatlarının və təbii mənşəli digər aktivlərin yaxşılaşdırılmasına və onlardan istifadə etməkdən ötrü hazırlanmasına (meliorasiya, qurutma və s., şaxtaların, meşə sahələrinin, plantasiyaların, bağların və digər kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi və genişləndirilməsinə) çəkilən kapital xarakterli xərclər daxildir. İstehsal olunmayan aktivlərə sahib olmaq hüququnun başqasına verilməsi ilə əlaqədar olan məsrəflərə vəkillər, daşınmaz əmlak ilə əməliyyatlar

expenditure is financed from the State budget and/or extra-budgetary funds.

GENERAL GOVERNMENT EXPENDITURE ON COLLECTIVE SERVICES *includes expenditure on services provided by budgetary at the expense of the State budget that meet the needs of society as a whole rather than those of individual households. This indicator includes expenditure on defence, general public adminsitration, science and scientific services (non-market), improvement and lighting of streets, services provided by organizations serving agriculture.*

FINAL CONSUMPTION EXPENDITURE OF NON-PROFIT INSTITUTIONS SERVING HOUSEHOLDS *consists of expenditure by public organizations on consumer goods and services provided free of charge to households. It also includes services provided free of charge by enterprises and organizations to their employees in the fields of education, health care and culture.*

GROSS FIXED CAPITAL FORMATION *is investment in fixed capital assets for the purpose of generating new income in the future through their use in production. Fixed capital consists of produced assets that are used repeatedly in the production process. These include buildings and structures, machinery and equipment, means of transport, breeding, dairy and draught livestock, orchards, vineyards and other cultivated plantations, expenditure on geological exploration, expenditure on computer software and databases, and originals of literary and artistic works (films, sound recordings, manuscripts, etc., which serve as the basis for producing copies)).*

Gross fixed capital formation consists of the following components:

a) acquisition of existing and newfixed assets, without taking into account disposals;

b) expenditure on improvementS of non-produced tangible assets;

c) costs associated with the transfer of ownership of non-produced assets.

Acquisition of assets includes purchases, barter, receipt of capital transfers in kind, production for own use and basic repairs.

Disposals of assets is indicated by (-). Improvement of non-produced tangible assets include capital expenditure on improvement of land, subsoil assets and other assets of natural origin and on preparing them for use (land reclamation, drainage, etc., development and expansion of mines, forest areas, plantations, orchards and other agricultural areas). Costs associated with the transfer of ownership of non-produced assets include the value of services provided by lawyers, real estate agents and other intermediaries, duties, commissions, taxes, etc. The components of gross fixed capital formation are valued as follows: a)

aparan agentlər və digər vasitəçilər tərəfindən göstərilən xidmətlərin dəyəri, rüsumlar, komisyon vergiləri, vergilər və s. daxil edilir. Əsas kapitalın ümumi yığımının tərkib hissələri aşağıdakı kimi qiymətləndirilir: a) əsas kapital satın alınarkən satınalma qiyməti (alıcının qiyməti) ilə, yəni sahib olmaq hüququnun başqasına verilmə xərclərinin hamısı daxil edilməklə; b) özünün istifadə etməsi üçün əsas kapital istehsal edilərkən əsas qiymətlərlə və ya istehsala çəkilən xərclərlə.

MADDİ DÖVRİYYƏ VƏSAİTLƏRİNİN DƏYİŞMƏSİ istehsal ehtiyatlarının, bitməmiş istehsalın, hazır məhsulun və təkrar satılmaq üçün nəzərdə tutulmuş məhsulun dəyərinin dəyişməsini əks etdirir. Maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyərinin dəyişməsi ehtiyata daxil olan məhsulun dəyəri ilə ehtiyatdan çıxarılmış məhsulun dəyəri arasındakı fərqlə müəyyənləşdirilir. Bu halda məhsul daxilolma və ya çıxarılma vaxtı istifadə edilən bazar qiymətləri ilə qiymətləndirilməlidir. Lakin praktikada hesabat dövründə bütün məhsul daxilolmaları və çıxarmaları haqqında məlumatı əldə etmək çətindir, buna görə də ehtiyatların dəyişməsi adətən müəssisənin mühasibat hesabatlarının məlumatlarına əsasən dövrün axırına və əvvəlinə olan ehtiyatların dəyərləri arasındakı fərq kimi hesablanır. Bu halda məhsulun ehtiyatda olduğu vaxt ərzində qiymətlərin dəyişməsi nəticəsində onun dəyərinin dəyişməsini (holdinq mənfəətini) istisna etmək lazımdır.

KAPİTAL TRANSFER elə əməliyyata deyilir ki, bu zaman aktivlər əvəzi ödənilmədən pul və ya natura şəklində bir institusional vahid tərəfindən digərinə verilir. Kapital transferləri adətən əməliyyat iştirakçılarından aktivlərin alınması və ya çıxdaş edilməsi ilə əlaqədar olan birdəfəlik və kəmiyyətcə böyük həcmli əməliyyatlardır. Kapital vergiləri, investisiya subsidiyaları, sair kapital transferləri (borcların ləğv edilməsi, mirasın alınması, zərərin ödənməsi və s.) onlara daxildir.

XALİS KREDİTLƏŞDİRMƏ (VƏ YA BORCALMA) maliyyələşmə mənbələrinin qeyri-maliyyə aktivlərinin xalis əldə edilməsi xərclərinə nisbətən artıqlığını və ya çatışmazlığını özündə əks etdirir. Bütövlükdə, iqtisadiyyat səviyyəsində xalis kreditləşdirmə və ya xalis borcalma ölkənin ''qalan dünya''nın sərəncamına, yaxud ''qalan dünya''nın ölkənin sərəncamına verdiyi resursların arasında dəyər ifadəsində yaranan fərqi göstərir.

XALİS İXRAC - idxal və ixrac arasındakı fərq kimi hesablanır və Azərbaycanın MDB dövlətləri də daxil edilməklə xarici ölkələrlə ticarət dövriyyəsini özündə birləşdirir.

ƏSAS QİYMƏT məhsula görə ödənilməsi nəzərdə tutulan bütün vergilər çıxılmaqla və məhsula görə subsidiyalar daxil edilməklə, istehsalçının məhsul və xidmətlərə görə əldə etdiyi qiyməti ifadə edir.

Özünün son istehlakı üçün istehsal edilən məhsul və xidmətlər oxşar bazar məhsul və xidmətlərinin əsas qiymətləri ilə qiymətləndirilir. Dövlət idarəetmə

when fixed capital is purchased, at the purchase price (purchaser's price), i.e. including all costs associated with the transfer of ownership; b) when fixed capital is produced for own use, at basic prices or at production costs.

CHANGES IN INVENTORIES *reflect changes in the value of inventories of materials and supplies, work-in-progress, finished goods and goods intended for resale. Change in the value of inventories is defined as the difference between the value of goods entering inventories and the value of goods withdrawn from inventories. In practice, however, it is difficult to obtain information on all additions to and withdrawals from inventories during the reporting period; therefore, changes in inventories are usually calculated, on the basis of enterprises' accounting records, as the difference between the value of inventories at the end and at the beginning of the period. In this case, changes in the value of goods resulting from changes in prices while they are held in inventories (holding gains) should be excluded.*

CAPITAL TRANSFERS *is a transaction in which assets are transferred without compensation, in cash or in kind, from one institutional unit to another. Capital transfers are usually one-off transactions of considerable value associated with the acquisition or disposal of assets by the parties to the transaction. They include capital taxes, investment grants and other capital transfers (debt cancellation, receipt of inheritances, compensation for losses, etc.).*

NET LENDING (+) OR BORROWING (-) *reflects the excess or shortfall of sources of financing relative to expenditure on the net acquisition of non-financial assets. At the level of the economy as a whole, net lending or net borrowing shows, in value terms, the difference between the resources made available by the country to the "rest of the world" and the resources made available by the "rest of the world" to the country.*

NET EXPORTS *are calculated as the difference between exports and imports and include the turnover of the trade of Azerbaijan with foreign countries, including the CIS countries.*

BASIC PRICE *is the price received by the producer for goods and services excluding all taxes payable on products, and including subsidies on products.*

Goods and services produced for own final consumption are evaluated by basic prices of

orqanları və ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatları tərəfindən göstərilən qeyri-bazar xidmətləri əsas kapitalın istehlakı da daxil edilməklə, bu təşkilatların cari xərclərinə istinad edilərək qiymətləndirilir.

MÜQAYİSƏLİ QİYMƏTLƏRLƏ QİYMƏTLƏNDİRMƏ (əvvəlki ilə nisbətən) həm istehsal olunmuş ÜDM kimi, həm də onun istifadəsi göstəriciləri üzrə aparılır. ÜDM istehsalı göstəricilərin müqayisəli qiymətlərlə yenidən qiymətləndirilməsi ikiqat deflyasiya üsulunun istifadəsi ilə həyata keçirilir. Bu zaman müqayisəli qiymətlərlə əlavə dəyərin həcmi müqayisəli qiymətlərlə qiymətləndirilmiş buraxılışın və aralıq istehlakın arasındakı fərq kimi alınır. Müqayisəli qiymətlərlə buraxılış və aralıq istehlakın yenidən qiymətləndirilməsi iki üsul ilə həyata keçirilə bilər:

- müvafiq qiymət indeksi vasitəsi ilə deflyasiya;
- fiziki həcm indeksləri və natural indikatorlar vasitəsilə baza ilinin cari qiymətlərlə olan məlumatlarının ekstrapolyasiya edilməsi.

ÜDM-in istifadəsi göstəricilərinin müqayisəli qiymətlərdə yenidən qiymətləndirilməsi üçün müvafiq qiymət indeksləri (istehlak qiymətlərinin indeksi, kapital qoyuluşunun qiymət indeksi və s.) və ya natura göstəriciləri tətbiq edilir.

ÜDM-in indeks-deflyatoru cari qiymətlərlə ÜDM-in keçən ilə nisbətən müqayisəli qiymətlərlə hesablanmış ÜDM-in həcminə nisbətidir. Məhsul və xidmətlərin qiymət indeksindən fərqli olaraq ÜDM-in deflyatoru qiymətlərin, eləcə də xalis vergilərin nominal həcminin dəyişməsinin nəticəsi olan əməyin ödənilməsinin, mənfəətin (qarışıq gəlirlər də daxil edilməklə) və əsas kapitalın istehlakının dəyişməsini xarakterizə edir.

İŞƏGÖTÜRƏNLƏRİN SOSİAL SIĞORTAYA AYIRMALARI gələcəkdə muzdlu işçilərin sosial sığorta üzrə müavinətlərinin alınmasını təmin etmək üçün müəssisələr (işəgötürənlər) tərəfindən dövlət və qeyri-dövlət sosial sığorta fondlarına köçürülən vəsaitdir. Onlar həm faktiki, həm də şərti hesablanmış ola bilər.

Sosial sığortaya faktiki ayırmalar müəssisə, təşkilat və digər işverənlər tərəfindən sosial sığortaya köçürülən vəsaitdən ibarətdir. Bu ödəmələr pensiya və müavinətlərin verilməsi, işçilərin istirahətinə və müalicəsinə sərf olunan xərclərin maliyyələşməsi üçün əsas mənbə hesab olunur. İşverənlərin bu ayırmaları birbaşa sosial sığorta təşkilatlarına ödəmələrinə baxmayaraq, onlar milli hesablar sistemində muzdlu işçilərə verilən əməyə görə haqq kimi nəzərə alınır.

Sosial sığortaya faktiki ayırmalar sosial sığortanın bütün növləri üzrə əmək haqqı fonduna, yəni sosial sığorta, pensiya, məşğulluq, əhaliyə sosial yardım fondlarına, buna bənzər digər büdcədənkənar fondlara ayrılmış məbləğin ölçüsü ilə müəyyənləşdirilir. Müəssisə və təşkilatların tibbi

similar market goods and services. Non-market services provided by general government and non-profit institutions serving households, are valued with reference to the current expenditure of these organizations, including consumption of fixed capital.

***VALUATION AT COMPARABLE PRICES** (compared to previous year) is carried out both for GDP produced and for indicators of its use. The revaluation of GDP production indicators at comparable prices is carried out using double deflation method. In this case, value added at comparable prices is obtained as the difference between output and intermediate consumption valued at comparable prices. Revaluation of output and intermediate consumption at comparable prices could be made by two methods:*

- deflation by corresponding price indices;
- extrapolation of base-year data at current prices using volume indices and physical indicators.

To reevaluate the indicators of use of GDP at comparable prices the relevant price indices (consumer price index, capital investment price index, etc.) and physical indicators are applied.

GDP deflator index is the ratio of GDP at current prices to the volume of GDP calculated at comparable prices relative to the previous year. Unlike the price index of goods and services, the GDP deflator reflects changes in compensation of employees, operating surplus (including mixed income) and consumption of fixed capital resulting from the change in prices as well as changes in the nominal amount of net taxes.

***EMPLOYER'S SOCIAL INSURANCE CONTRIBUTIONS** are funds trensferred by enterprises (employers) to state and non-state social insurance funds in order to ensure thatemployees receive social insurance benefits in future. They may be actual or imputed.*

Actual social insurance contributions consist of funds transferred for social insurance by enterprises, organizations and other employers. These payments constitute the main source for the payment of pensions and benefits and for financing expenditure on employees' recreation and medical treatment. Although these contributions are paid by employers directly to social insurance organizations, in the System of National Accounts they are recorded as compensation paid to employees for their labour.

Actual social insurance contributions are determined by the amount allocated from the wage fund for all types of social insurance, i.e. to social insurance, pension, employment and social assistance funds and other similar extra-budgetary funds. They also include compulsory contributions by enterprises and organizations to medical

sığortaya məcburi ayırmaları da onlara aiddir. Müəssisə və təşkilatların tibbi sığortaya könüllü ayırmaları əmək haqqına aid edilir.

Sosial sığortaya şərti hesablanmış ayırmalar öz işçilərinə, buna hüququ olan keçmiş işçilərə və onların himayəsində olanlara birbaşa sosial müavinətlərin verilməsini təmin etmək məqsədilə müəssisə, təşkilat və digər işəgötürənlər tərəfindən ödənilən ayırmaları özündə əks etdirir. Onlar bu dövrdə müəssisələr tərəfindən faktiki ödənilmiş sosial müavinətlərin, məsələn, əmək müqaviləsi ləğv edilərkən verilən çıxış müavinətinin; ştatın ixtisara salınması, müəssisənin yenidən təşkil edilməsi və ya ləğv edilməsi ilə əlaqədar olaraq işdən çıxarılmış işçilərə başqa işə düzələnə qədər olan dövr üçün verilən məbləğin; əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar ödənilən müavinətin; pensiyalara əlavələrin, tədris məzuniyyətlərinə görə işçilərə verilən ödəmələrin; uşağa qulluğa görə pulu qismən ödənilən məzuniyyətdə olan qadınlara verilən kompensasiyaların; müəssisə tərəfindən təhsil almağa göndərilən tələbə və şagirdlərin təqaüdlərinin cəminə bərabərdir.

XALİS ƏLAVƏ DƏYƏR əsas kapitalın istehlakı çıxıldıqdan sonra yerdə qalan ümumi əlavə dəyəri ifadə edir.

ÜMUMİ MƏNFƏƏT VƏ ÜMUMİ QARIŞIQ GƏLİRLƏR əlavə dəyərin muzdlu işçilərin əmək haqqının, istehsala görə vergilərin və idxal vergilərinin ödənilməsi ilə əlaqədar olan xərclərin məbləği çıxıldıqdan sonra istehsalçılarda qalan bir hissəsidir. Bu göstərici mülkiyyətdən gəlirlər nəzərə alınmadan, istehsaldan əldə edilən mənfəətlə (və ya zərərlə) ölçülür. Belə halda, bu göstərici qarışıq gəlir adlandırılır, ona görə ki, ona nəzəri olaraq, mülkiyyətçinin sahibkar kimi əldə etdiyi gəlirdən seçilməsi mümkün olmayan ev təsərrüfatı üzvlərinin və mülkiyyətçisinin əməyinin ödənilməsi daxil edilir.

XALİS MƏNFƏƏT VƏ XALİS QARIŞIQ GƏLİRLƏR əsas kapitalın istehlakı çıxılmaqla ümumi mənfəətə və ümumi qarışıq gəlirlərə bərabərdir.

ÜMUMİ MİLLİ GƏLİR qalan dünya ilə iqtisadi əlaqələr nəticəsində yaranan (verilən və alınan) ilkin gəlirlərin saldosu nəzərə alınmaqla, rezident-vahidlər tərəfindən əldə edilən ilkin gəlirlərin cəmidir. Ümumi milli gəlir ümumi daxili məhsuldan, başqa ölkələrə verilmiş və ya başqa ölkələrdən alınmış ilkin gəlirlər nəzərə alınmaqla hesablanır (əvvəllər ümumi milli gəlir ümumi milli məhsul adlanırdı).

SOSİAL MÜAVİNƏTLƏR gəlirlərin və rifah vəziyyətinin aşağı düşməsinə səbəb olan müəyyən şəraitin yaranması ilə əlaqədar olaraq ev təsərrüfatlarına ödənən müavinətlərdir. Bu şəraitlər aşağıdakılardır: müalicəyə ehtiyac, himayədə olanları saxlamağın labüdlüyü, təqaüdə çıxmaq, işsizlik, xəstəlik, zədələnmələr, uşağın doğulması və s. ilə əlaqədar olaraq işləməyin mümkün olmaması, ailə başçısının ölümü, təhsil xərclərinin ödənilməsinin

insurance. Voluntary contributions by enterprises and organizations to medical insurance are included in wages.

Imputed social insurance contributions reflect contributions paid by enterprises, organizations and other employers for the purpose of providing social benefits directly to their employees, former employees entitled to such benefits and their dependants. They are equal to the total amount of social benefits actually paid by enterprises during the period, such as severance payments upon termination of an employment contract; amounts paid, in connection with staff reductions or the reorganization or liquidation of an enterprise, to dismissed employees for the period until they obtain other employment; benefits paid in connection with loss of capacity for work; supplements to pensions; payments to employees for educational leave; compensation paid to women on partially paid childcare leave; and scholarships for students and pupils sent by the enterprise for education..

***NET VALUE ADDED** expresses gross value added remaining after the decution of fixed capital consumption.*

***GROSS PROFIT AND GROSS MIXED INCOMES** are the part of added value remaining with producers after deducting compensation ofof employees, expenses related to payment of production and import taxes. This indicator is measured by profit (losses) derived from production without consideration of incomes from property. This indicator reflects mixed incomes, because it theoretically includes payment of labour of household members and owners.*

***NET PROFIT AND NET MIXED INCOMES** is equal to gross profit and gross mixed income less consumption of fixed capital.*

***GROSS NATIONAL INCOME** is the sum of primary income received by resident-units taking into account the balance of primary income arising from economic relations with the rest world (receivable and payable). Gross national income is calculated from gross domestic product, taking into account primary income payable to and receivable from other countries (gross national income was formerly called gross national product).*

***SOCIAL BENEFITS** are benefits paid to households in connection with the occurrence of certain circumstances that cause a decline in income and well-being. These circumstances inlcude the need for medical treatment, of the need to support dependants, retirement, unemployment, inability to work due to illness, injury, childbirth, etc., the death of the breadwinner, the need to cover*

labüdlüyü, mənzilə ehtiyac. Sosial müavinətlər pul və ya natura, yəni pul müavinətləri, pulsuz və ya ucuz qiymətlə əmtəə verilməsi və xidmət göstərilməsi şəklində ola bilər.

Sosial müavinətlərə əhalinin dövlət büdcəsindən, dövlət və qeyri-dövlət sosial sığorta fondlarından, sığorta idarələrindən, həmkarlar ittifaqlarından, digər ictimai təşkilatlardan və xeyriyyə fondlarından aldığı aşağıdakı təqaüd və müavinət növləri daxil edilir; qocalığa, uzun müddət işləməyə görə, ailə başçısının itirilməsinə görə təqaüdlər; xüsusi təqaüdlərə verilən, əlilliyə görə, həlak olmuş hərbçilərin ailələrinə verilən təqaüd və müavinətlər; iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə, əmək zədələri və peşə xəstəlikləri zamanı verilən müavinətlər, hamiləliyə və doğuşa görə, uşağa qulluğa görə, az təminatlı ailələrdə uşaqlara, uşaqlıqdan əlilliyə, çoxuşaqlı və tənha analara və s. müavinətlər; sanatoriya və istirahət evlərinə yollayışların ödənilməsi, müalicəyə və istirahətə getmək pulunun ödənilməsi; təqaüdlər.

Bundan başqa, sosial müavinətlər müəssisə və təşkilatların vəsaiti hesabına da ödənilə bilər.

NATURA FORMASINDA SOSİAL MÜAVİNƏTLƏR fərdi xidmətlər göstərən dövlət idarəetmə orqanlarının və ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatlarının son istehlakına çəkilən xərclərin cəmidir. Onlara daxildir:

a) dövlət idarəetmə orqanları və qeyri-kommersiya təşkilatları tərəfindən ev təsərrüfatlarına pulsuz və ya güzəştli qiymətlərlə göstərilən fərdi qeyri-bazar xidmətlərinin, məsələn, təhsil, mədəniyyət, səhiyyə, idman, sosial təminat, mənzil-kommunal təsərrüfatı və s. sahələrində xidmətlərin dəyəri;

b) ev təsərrüfatlarına təqdim edilməsi məqsədilə (natura şəklində sosial müavinətlər) dövlət idarəetmə orqanları və qeyri-kommersiya təşkilatlarının bazar istehsalçılarından satın aldıqları istehlak mallarının və xidmətlərin dəyəri. Onlara daxildir: məsələn, şagirdlər üçün dərsliklərin alınmasına ümumtəhsil məktəblərinin çəkdikləri xərclər, əlillərə verilən nəqliyyat vasitələrinin alınmasına, təmirinə və onlara göstərilən texniki xidmətə, əlillərin benzin xərclərinin əvəzinin ödənilməsinə, protezlərin salınmasına çəkilən xərclər, pulsuz (və ya ucuzlaşdırılmış qiymətlərlə) dərmanların dəyəri və s.

FAKTİKİ SON İSTEHLAK maliyyələşmə mənbəyindən asılı olmayaraq, ev təsərrüfatları-rezidentlər tərəfindən fərdi istehlak üçün alınmış bütün əmtəə və xidmətlərin dəyərini və dövlət idarəetmə orqanları tərəfindən bütövlükdə cəmiyyətə göstərilən kollektiv xidmətlərin dəyərini özündə əks etdirir. Ev təsərrüfatları üçün o, istehlak mallarının və xidmətlərin satın alınması xərclərini və natura şəklində sosial transferlər kimi dövlət idarəetmə orqanlarından və qeyri-kommersiya təşkilatlarından ev

education expenses, and the need for housing. Social benefits provided in cash or in kind, i.e. in the form of cash benefits or the provision of goods and services free of charge or at reduced prices.

Social benefits include the following kinds of pensions and benefits received by the population from the state budget, state and non-state social insurance funds, insurance institutions, trade unions, other public organizations and charitable funds: old-age pension, long service pension, survivor's pensions; supplements to special pensions, disability pensions, pensions and benefits for families of deceased military personnel; benefits for temporary incapacity for work, occupational injuries and occupational diseases, maternity benefits, childcare benefits, benefits for children in low-income families, benefits for persons with disabilities since childhood, benefits for mothers with many children and single mothers, etc.; payment for vouchers to sanatoriums and holiday homes, reimbursement of travel expenses for medical treatment and recreation; scholarships.

In addition, social benefits may also be paid from the funds of enterprises and organizations.

***SOCIAL BENEFITS IN KIND** are the sum of final consumption expenditure of general government and non-profit institutions serving households that provide individual services. They include:*

a) the value of individual non-market services provided to households free of charge or at reduced prices by general government and non-profit institutions, for example, services in the fields of education, culture, health care, sports, social security, housing and communal services, etc.;

b) the value of consumer goods and services purchased from market producers by general government and non-profit institutions for provision to households (social benefits in kind). These include for example, expenditure by general educational schools on the purchase of textbooks for pupils, expenditure on the purchase and repair of means of transport provided to persons with disabilities and on technical services provided to them; reimbursement of fuel expenses of persons with disabilities; expenditure on prostheses; the value of medicines provided free of charge or at reduced prices, etc.

***ACTUAL FINAL CONSUMPTION** reflects irrespective of the source of financing, the value of all goods and services acquired by resident households for individual consumption and the value of collective services provided by general government to society as a whole. For households, it includes expenditure on the purchase of consumer goods and services and the value of individual goods and services received free of charge by households from general government and non-profit*

təsərrüfatlarının pulsuz aldıqları fərdi əmtəə və xidmətlərin dəyərini özündə birləşdirir. Dövlət idarəetmə orqanları üçün faktiki son istehlak kollektiv xidmətlərin dəyərinə bərabərdir; ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarında faktiki son istehlak yoxdur. Bütövlüklə iqtisadiyyat üzrə yekuna görə faktiki son istehlak və son istehlak xərcləri göstəriciləri eynidir.

ÜMUMİ MİLLİ QƏNAƏT sərəncamda olan gəlirin əmtəə və xidmətlərin son istehlakına sərf olunmayan hissəsidir.

ƏSAS FONDLAR ölkənin milli sərvətinin mühüm hissəsini təşkil edir. Binalar, qurğular, ötürücü qurğular, maşın və avadanlıq, nəqliyyat vasitələri, alətlər, işlək və məhsuldar mal-qara və əsas fondların digər növləri onlara aiddir.

Bütün mülkiyyət formalarından olan müəssisə və təşkilatların əsas fondları, habelə vətəndaşların mülkiyyətində olan əsas fondlar, yəni yaşayış binaları, təsərrüfat tikililəri, çoxillik əkinlər, işlək və məhsuldar mal-qara, kənd təsərrüfatı texnikası əsas fondların tərkibində uçota alınır.

Əsas fondlar balans və bərpa dəyəri (tam və qalıq) ilə qeydə alınır. Balans dəyəri əsas fondların alındığı vaxtdakı qiymətlərlə əldə edilməsi, quraşdırılması və istismara verilməsi dəyəridir.

Bərpa dəyəri nəzərdən keçirilən dövr üzrə əsas fondların təkrar istehsal qiymətləri ilə dəyərini göstərir. Tam dəyər əsas fondların aşınmasının yığım kəmiyyəti çıxılmazdan əvvəl müəyyənləşdirilir. Qalıq dəyəri əsas fondların aşınmasının yığım kəmiyyətinin (ilin əvvəlinə və axırına olan vəziyyətə görə) tam dəyərdən çıxılması ilə müəyyənləşdirilir.

İSTEHSALÇININ QİYMƏTİ məhsula görə ödənilməsi nəzərdə tutulan vergilər də (əlavə dəyər vergisindən başqa) daxil edilməklə və məhsula görə alınması nəzərdə tutulan subsidiyalar çıxılmaqla (-), istehsalçının mal və xidmətlərə görə malik olduğu qiyməti ifadə edir.

institutions as social transfers in kind. For general government, actual final consumption is equal to the value of collective services; non-profit institutions serving households have no actual final consumption. For the economy as a whole, actual final consumption and final consumption expenditure are equal.

***GROSS NATIONAL SAVING** is a part of disposable income that is not used for final consumption of goods and services.*

***FIXED ASSETS** constitute an important part of the national wealth of the country. They include buildings, structures, transmission facilities, machinery and equipment, means of transport, tools, draught and productive livestock, and other types fixed assets.*

Fixed assets of enterprises and organizations of all forms of ownership, as well as fixed assets owned by citizen, i.e. residential buildings, constructions, perennial plantations, draught and productive livestock, and agricultural machinery, are recorded as fixed assets.

Fixed assets are registered at book value and replacement value (gross and net). The book value is the cost of acquisition, installation and commissioning of fixed assets at the prices prevailing at the time they were acquired.

The replacement value includes the value of fixed assets at reproduction prices for the period under consideration. Gross value is determined before deducting accumulated depreciation of fixed assets. Net value is determined by deducting accumulated depreciation of fixed assets from their gross value (at the beginning and at the end of the year).

***PRODUCER PRICE** is the price receivable by the producer for goods and services including taxes payable on products (except value added tax) and excluding (-) subsidies receivable on products.*

Qeydlər üçün

For notes

"Azərbaycanın Milli Hesabları"/ Statistik məcmuə / Bakı, 2026
"*National Accounts of Azerbaijan"/ Statistical yearbook / Baku, 2026*

Məcmuənin hazırlanmasına ümumi rəhbərlik:	Azər Mursaqulov
Buraxılış üzrə məsul:	Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi
Şöbə müdiri:	Nuru Süleymanov
İcraçılar:	Alidə Alpaşayeva Rasim Mirzəyev Kəlimət Cəlilova Günel Qədirova Orxan Quliyev
General leadership for preparation of the yearbook:	*Azer Mursagulov*
Responsible for issue:	*National accounts and macroeconomic indicators statistics department*
Head of Department:	*Nuru Suleymanov*
Executors:	*Alida Alpashayeva* *Rasim Mirzayev* *Kalimat Jalilova* *Gunel Gadirova* *Orkhan Guliyev*
Telefon: *Phone number:*	+99412 377 10 70 (22 17) *+99412 377 10 70 (22 17)*

Bu məcmuədən istifadəyə müstəsna hüquq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə məxsusdur və adı çəkilən əməkdaşlar məcmuənin hazırlanmasında xidməti tapşırıq əsasında iştirak etmişdir.

The exclusive right to use this yearbook belongs to the State Statistical Committee of the Republic of Azerbaijan, and the aforementioned employees participated in its preparation as part of their official duties.

Format: 70x100 1/16
Həcmi: 8,25 c.v.
Tiraj: 60 nüsxə

“Çaşıoğlu Eİ-MMC” mətbəəsində çap edilib.